*"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!*

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

**Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər il 31 dekabr tarixində qeyd olunur, azərbaycanlıların milli həmrəyliyini, birliyini və mədəni irsə bağlılığı nümayiş etdirir. Həmin gün Azərbaycanın tarixi, mədəniyyəti və milli kimliyinin təntənəsi olmaqla yanaşı, dünya azərbaycanlıları arasında əlaqələrin gücləndirilməsi, həmçinin onların tarixi vətənləri ilə bağlılığını dərinləşdirmək üçün əhəmiyyətli bir bayramdır. Dünya Azərbaycanlılarının Həmrəylik Günü 1989-cu ildə Naxçıvan Muxtar Respublikasında baş verən tarixi hadisələri yada salır. Həmin il dekabr ayında keçmiş SSRİ və İran arasında yerləşən sərhəd dirəklərinin sökülməsi və vaxtilə ikiyə bölünmüş azərbaycanlıların bir-birinə yaxınlaşması həmrəyliyin əsasını qoydu. Azərbaycan xalqının milli kimlik və birlik arzuları, xüsusən də müstəqillik yolunda atılan addımlarla bu günün əhəmiyyəti daha da artdı.**



# Azərbaycançılıq ideologiyası güclü missiyadır

1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Bu gün həm də Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdiyi dövrə təsadüf etdiyi üçün xalqın milli ruhunun dirçəlməsi ilə sıx əlaqəlidir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram olmaqla yanaşı, həm də azərbaycançılıq ideologiyasının canlı təntənəsidir. Bu ideologiya müasir müstəqil Azərbaycanın inkişafında, xalqımızın milli ruhunun dirçəlməsində və dünya azərbaycanlılarının öz kimliyini daha dərindən dərk etməsində əvəzsiz rol oynayır. Azərbaycançılıq ideologiyası hər bir azərbaycanlının qəlbində yaşayan güclü bir missiyadır. Harada yaşamağımızdan, hansı qitədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq, hamımızı bir amal ətrafında birləşdirən bu ideya həmrəyliyimizin və gücümüzün əsas mənbəyidir. Bu gün dünyada yaşayan milyonlarla soydaşımız ana Vətənimiz Azərbaycanın inkişafını və beynəlxalq arenada tanınmasını özünün müqəddəs borcu saymalıdır. Azərbaycançılıq ideologiyasına söykənərək hər birimiz mədəniyyətimizin, tariximizin və milli dəyərlərimizin təbliği üçün yorulmadan çalışmalıyıq. Bu ideologiya sayəsində xalqımızın həqiqətləri dünya ictimaiyyətinə daha obyektiv şəkildə çatdırılır, Vətənimiz haqq işində müdafiə olunur.

2001-ci ilin 9-10 noyabr tarixlərində Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı tarixi hadisə kimi xalqımızın birliyinə yeni nəfəs verdi. Bu möhtəşəm tədbir dünya azərbaycanlılarının birləşməsi, mövcud olan problemlərin aradan qaldırılması və diaspor fəaliyyətinin daha güclü şəkildə təşkil edilməsi istiqamətində dönüş nöqtəsi oldu. Qurultayda 36 xarici ölkədən gələn 200-dən artıq təşkilatın 406 nümayəndəsi və 63 qonaq iştirak edib. Bütün iştirakçıların ortaq məqsədi aydın idi: azərbaycançılıq ideologiyasını gücləndirmək, dünya azərbaycanlılarını milli maraqlar ətrafında birləşdirmək və Vətənimizin həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti ilə 2002-ci il iyulun 5-də yaradılan Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi bu tarixi prosesin davamlılığını təmin etdi. Komitənin fəaliyyəti dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmləndirilməsində, diasporumuzun siyasi və ideoloji birliyinin təmin edilməsində əvəzsiz rol oynayır. Bu təşəbbüs sayəsində Azərbaycan diasporu beynəlxalq arenada əsl güc mərkəzinə çevrildi. Artıq Azərbaycan diasporu təkcə milli kimliyini qorumaqla kifayətlənmir, həm də Vətənimizin maraqlarını qətiyyətlə müdafiə edir.

Dünya Azərbaycanlılarının V Qurultayı 2022-ci il aprelin 22-23-də Şuşa şəhərində - azərbaycanlıların milli qürur və zəfər rəmzinə çevrilmiş müqəddəs torpaqda keçirildi. "Zəfər Qurultayı" adı altında keçirilən bu tarixi tədbir xalqımızın həmrəyliyinin, Azərbaycan diasporunun gücünün və dövlətimizin müzəffər siyasətinin əsl təcəssümü oldu. Qurultayda 65 ölkədən 400-dən artıq diaspor nümayəndəsi iştirak edərək Qarabağ zəfərindən sonra həmrəylik ruhunu bir daha möhkəmləndirdi. Bu möhtəşəm tədbir Vətən müharibəsində qazandığımız Qələbənin, Azərbaycan xalqının əyilməz iradəsinin və dünya azərbaycanlılarının milli maraqlar ətrafında sıx birliyinin təntənəsini nümayiş etdirdi. Prezident İlham Əliyevin qurultaydakı çıxışı milli birliyimizin və diaspor siyasətimizin gələcək prioritetlərini bir daha təsdiqlədi. Dövlət başçısı qeyd etdi ki, Vətən müharibəsi zamanı diaspor nümayəndələrinin beynəlxalq arenada göstərdiyi dəstək, informasiya müharibəsində apardıqları qətiyyətli mübarizə Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılmasında mühüm rol oynadı.

44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror tədbirləri Azərbaycan xalqının həmrəyliyinin və milli birliyinin əsl nümunəsini ortaya qoydu. Bu tarixi hadisələr zamanı dünya azərbaycanlıları bir yumruq kimi Prezident İlham Əliyevin ətrafında sıx birləşərək xalqımızın sarsılmaz bağlarını və əyilməz iradəsini bütün dünyaya göstərdi. Məhz bu qırılmaz bağlar və əsl həmrəylik ruhu sübut etdi ki, azərbaycanlılar böyük gücə malikdirlər. Xaricdə yaşayan soydaşlarımızın düşmən təxribatlarına qarşı cəsarətli mübarizəsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılmasında fədakar xidmətləri Vətən müharibəsində qazandığımız Qələbəyə layiqli töhfə oldu. Bu birlik həm də azərbaycanlıların milli qürurunun daha da güclənməsinə səbəb oldu. Bu gün azərbaycanlılar dünyanın hər bölgəsində başıuca, qürurla addımlayır, öz millətinin qüdrətini, həmrəyliyini və zəfərini nümayiş etdirirlər.

**Musa BAĞIRLI,**
**"Respublika".**